**"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Müəyyən edilsin ki:

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 3-cü hissəsinin ikinci abzasında və 9-cu maddəsinin onuncu abzasında, 5-ci maddəsinin 3-cü hissəsində, 9-cu maddəsinin birinci hissəsinin ikinci və doqquzuncu bəndlərində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[1]

həmin Qanunun 6-cı maddəsinin 1-ci və 3-cü hissələrində; 7-ci maddəsində; 9-cu maddəsinin dördüncü, beşinci, altıncı, onuncu və onbirinci abzaslarında; 10-cu maddəsinin 1-ci və 2-ci hissələrində; 11-ci maddəsinin 1-ci hissəsinin 1.1-ci, 1.3-cü və 1.5-ci bəndlərində, 12-ci və 13-cü maddələrində nəzərdə tutulmuş "təbii inhisarları tənzimləyən orqanlar"ın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirirlər;[2]

həmin Qanunun 8-ci maddəsinin 1-ci hissəsində, 2-ci hissəsinin birinci abzasında, 3-cü hissəsinin birinci abzasında, 4-cü, 5-ci, 6-cı və 7-ci hissələrində; 9-cu maddəsinin ikinci, üçüncü, yeddinci, səkkizinci və doqquzuncu abzaslarında; 10-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş "təbii inhisarları tənzimləyən orqan"ın, *11-ci maddəsinin 1-ci hissəsinin 1.4-cü bəndində və 2-ci hissəsinin ikinci cümləsində* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi həyata keçirir.[3]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 2 mart 2001-ci il
446

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 11 oktyabr 2001-ci il tarixli **587** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**)
2. 14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**)
3. 15 noyabr 2013-cü il tarixli **24** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 17 noyabr 2013-cü il, 252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1328** )
4. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101)**
5. 14 sentyabr 2015-ci il tarixli **596** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 15 sentyabr 2015-ci il, 201, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 983)**
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 15 noyabr 2013-cü il tarixli **24** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 17 noyabr 2013-cü il, 252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1328)** ilə üçüncü abzasında "**və 9-cu maddəsinin onuncu abzasında**" sözləri ", **5-ci maddəsinin 3-cü hissəsində, 9-cu maddəsinin birinci hissəsinin ikinci və doqquzuncu bəndlərində** " sözləri ilə əvəz edilmişdir.

[2] 14 iyun 2007-ci il tarixli **588** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə üçüncü abzasında «**Maliyyə Nazirliyi**» sözlərindən sonra «**və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası**» sözləri əlavə edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101)** ilə dördüncü və beşinci abzaslarında "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə dördüncü və beşinci abzaslardan "**və Sənaye**" sözləri çıxarılmışdır.

[3] 11 oktyabr 2001-ci il tarixli **587** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**) ilə üçüncü abzasda "**İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi**" sözləri, dördüncü abzasında "**Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi** " sözləri "**Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

14 sentyabr 2015-ci il tarixli **596** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 15 sentyabr 2015-ci il, 201, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 983)** ilə beşinci abzasında "**və 11-ci maddəsinin 1.4 bəndində** " sözləri "**, 11-ci maddəsinin 1-ci hissəsinin 1.4-cü bəndində və 2-ci hissəsinin ikinci cümləsində**" sözləri ilə əvəz edilmişdir.